## *METODİKA: FƏNLƏRİN TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ*

UOT 37.01

***Təranə Fərrux qızı Muradova***
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# İNTEQRASİYA TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

***Тарана Фаррук кызы Мурадова***
*докторант*
*Азербайджанский Государственный Педагогический Университет*

# ИНТЕГРИРОВАННОЕ ОБУЧЕНИЕ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБУЧЕНИЯ

***Tarana Farruk Muradova***
*doctoral student in philosophy*
*Azerbaijan State Pedagogical University*

# INTEGRATED TEACHING AS A MEANS OF IMPROVING THE QUALITY OF EDUCATION

**Xülasə:** Məqalədə inteqrasiya növlərindən, inteqrativ dərslərin təşkilindən danışılır və onun təlim keyfiyyətinə təsiri imkanları araşdırılır. Qeyd olunur ki, bəzi hallarda fənn standartlarını tam reallaşdırmaq və intellektual bütövləşməni təmin etmək üçün bəzən fənnin öz standartları kifayət etmədiyinə digər fənn standartlarına da müraciət olunur. Fənlərarası əlaqəni düzgün qurmaqla təlim keyfiyyətinin yüksəldilməsinə nail olunur. Mülahizələr dil faktları ilə əsaslandırılır və konkret olaraq Azərbaycan dilinin ədəbiyyat fənni ilə əlaqəsindən danışılır.
***Açar sözlər:*** *inteqrasiya, mətn, dil qaydaları, fonetika, inteqrativ testlər.*

**Резюме:** В статье рассматриваются типы интеграции и организация интегративного урока, а также изучается его влияние на качество обучения. Отмечается, что в некоторых случаях другие стандарты науки применяются к тому факту, что у субъекта недостаточно стандартов для полного осуществления предметных стандартов и обеспечения интеллектуальной целостности. Достигнуто повышение качества обучения путем установления взаимосвязанных отношений. Аргументы основаны на языковых фактах и конкретно говорят о связи азербайджанского языка с предметом литературы.
***Ключевые слова:*** *интеграция, текст. языковые правила, фонетика, интегрированные тесты*

**Summary:** The article discusses the types of integration and the organization of an integrative lesson, as well as its impact on the qualit of education. It is noted that in some cases other standards of science apply to the fact that the subject does not have enough standards to fully implement the subject standards and ensure intellectual integrity. The quality of education has been improved by establishing interrelated relations. Arguments are based on linguistic facts and specifically speak about the connection of the Azerbaijani language with the subject of literature.
***Keywords:*** *integration, text, language rules, phonetics, integrated tests.*

Bu gün Azərbaycan məktəbi 3-cü minilliyin ikinci onilliyini başa vurmaq üzrədir və mənsub olduğumuz cəmiyyətin normal inkişafı maddi sərvətlərlə yanaşı intellektual kapitaldan, bu kapitalı formalaşdıran təhsil sistemindən çox asılıdır. Müasir insanın gün ərzində ala bildiyi

informasiya 200 il bundan əvvəl insanların il ərzində aldığı məlumatlarla ekvivalentdir. Bu da onu diqtə edir ki, hər bir insan indiki texniki imkanlar çərçivəsində zəruri informasiyaları şüurlu, müstəqil qazanmağı, onun üzərində işləməyi, qazandıqlarını səmərəli tətbiq etməyi bacarmalıdır.

Öyrədən və öyrənən tərəflər üçün qoyulan tələb formalarının dəyişməsi ümumilikdə təhsilə, təlimə münasibəti dəyişməkdədir. Klassik təlimdən fərqli olaraq müasir təlimdə müəllim şagirdin məlum biliklərindən çıxış edərək, ona müstəqil, yaradıcı şəxsiyyət kimi baxır. O, dərsini əməkdaşlıq, dialoq prinsipi çərçivəsində qurmaqla daha çox bilikləri tənzimləyən, cilalayan, nizama salan bələdçi rolunda çıxış edir.

Bu gün bütün təlim sistemi (ənənəvi təlimin imkanları da nəzərə alınmaqla) şəxsiyyətə yönəldilir və şagirdin şəxsiyyət kimi təlim prosesinin mərkəzində çıxış etməsini təmin etmək istəyir. Müasir texnologiya, kompüter – internet sistemi, dünyanın avanqard təhsil sistemləri ilə inteqrasiyanı, əlaqəni zəruri elementə çevirir. Yəni bir qısa dairədə qapanıb qalmaq, məhdud bilik çərçivəsində məlumatlı olmaq III minilliyin insanına heç nə vermir. Geniş mənada dünya ilə dünyanın qabaqcıl təhsil strategiyası, yeni təlim sistemləri ilə, aid olduğun elm sahəsi, yaxın, nisbətən yaxın, uzaq fənlərlə əlaqə artıq qaçılmaz faktorlardır.

İnteqrasiya anlayışı qloballaşmanın meydana qoyduğu mühüm tələblərdən biridir və demokratik dəyərlərə üstünlük verən dünyaya inteqrasiya Azərbaycan təhsilinin də başlıca istiqamətlərindəndir. Sintetik xarakterə malik olan inteqrasiya əslində həyatın bütün sahələrinə aiddir və o, bütövləşmə əsasındakı yeni yaranışın əsasını təşkil etməklə cəmiyyətin inkişafını tənzimləyir, müasirliyin təminatçısı rolunda çıxış edir.

İnteqrasiya məfhumu təhsil sferasında bir termin XX əsrin sonlarından etibarən işlənməyə başlasa da, onun ifadə etdiyi gerçəklik, məzmun və mahiyyət təlimdə həmişə mövcud olmuşdur. Təlimi əlaqələr, fəndaxili və fənlərarası əlaqələrin mənimsəmə keyfiyyətinə təsiri illər boyu pedaqoji mühitin aparıcı mövzularından olmuşdur. Diferensial və interaktiv yanaşmalar analitik qaydaları tənzimləmiş və mütərəqqi yeniliklər bu tənzimləmənin nəticəsi olaraq meydana çıxan uğurlar əsasında qazanılmışdır.

Təlim prosesində, onun nəzəri-didaktik tərəflərinin şərhində həmişə "əlaqə", "inteqrasiya", "inteqrativlik", "təhsildə inteqrasiya" və s. kimi anlayışlardan istifadə olunmuşdur. Yəni, təlim üçün inteqrasiya məfhumu heç də göydəndüşmə məfhum deyildir. Təbii ki, imperiya boyunduruğunda, qapalı mühitdə yaşadığımız dövrdə dünyanın qabaqcıl ölkələrinin təhsil sistemi ilə müstəqillik dövründə olduğu qədər geniş, hərtərfli əlaqələrin qurulması mümkün deyildi. Həmin dövrlərdən fərqli olaraq bu gün inteqrasiya Azərbaycan təhsil sistemində aparıcı yer tutur və elə bir təlim fənni də yoxdur ki, məzmun, mahiyyət konkret standartlar vasitəsilə inteqrasiyada öyrənilməsin.

İnformasiya məkanlarının bolluğu və informasiya axını dövründə cəmiyyətin inkişaf dinamikasına uyğun birləşmələr, bloklar yaratmaq, ümumiləşdirmələr aparmaq müasir təlimdə ən vacib strategiyalardan biridir. Artıq inteqrasiya insan fəaliyyətinin bütün sahəsini xarakterizə edən, onu tənzimləyən tendensiyadır. İnteqrativ dərsliklərin yazılması, inteqrativ dərslərin təşkili təlimin zəruri elementinə çevrilmişdir. Müasir dərslərdə inteqrativlik quru əlaqə xətrinə deyil, bütövləşməni, tamlığı, yenilənməni təminetmə zərurəti əsasında qurulmalıdır.

Tədqiqi və təhlili müşahidələr göstərir ki, təlimdə inteqrativliyə münasibət də eyni deyildir. Bir qrup mütəxəssis düşünür ki, inteqrasiyaya ümumpedaqoji konseptual mahiyyət kimi, didaktik sistemin sintezi kimi baxılmalı və ona təlimdə şəxsiyyətyönlülüyü təmin edən əsas vasitə kimi yanaşılmalıdır. Məhz inteqrativ bilik, bacarıq və vərdişlər sayəsində şəxsiyyəti formalaşdırmaq, onu cəmiyyətin intellektual kapitalına çevirmək mümkündür. Yəni, koqnitiv (idrakı) bilik yalnız inteqrasiya sayəsində qazanıla bilər.

İkinci yanaşma tərəfdarları isə belə düşünür ki, inteqrasiyanı yalnız biliyin verilməsində deyil, biliyi mənimsətmə prosesindəki mexanizmlərdə, təlim texnologiyalarında da gözləmək lazımdır.

Biz isə belə düşünürük ki, əsl həqiqət, intellektual kapitalın formalaşması və keyfiyyətli nəticənin əldə olunması bu iki yanaşmanın sintezindədir. Təlimdə məzmun, mahiyyət üzrə işin əlaqəli qurulması ilə yanaşı, onun mənimsətmə mexanizmləri, pedaqoji texnologiyalar arasında da inteqrativlik təmin olunmalıdır. Xüsusilə, dəqiq elm-

lərlə təbiət elmləri arasında bu cür inteqrasiyaların olması müasir təlimin təməl prinsiplərindən olan tələbatyönlülüyü də təmin etmiş olur.

"Müasir dövrdə humanitar fənlərin təbii-elmi fənlərlə inteqrasiyası daha çox vurğulanır. Bu ideya öz-özlüyündə son dərəcə durumludur. Bir tərəfdən elmi-tərəqqi şəraitində məktəb sadəcə olaraq humanitar fənlərin ekstensivləşdirilməsi yolu ilə inkişaf edə bilməz. Digər tərəfdən, fənlərin inteqrasiyasını dövrün sərt məntiqi "təhsil gündəminə" çıxarıb. Respublikamızda bu sahədə ilk addımlar atılıb. "İnsan və cəmiyyət" inteqrativ fəndir. Bu sahədə əldə edilmiş təcrübə elmi-metodik meyarlarla təhlil olunmalıdır. Ən başlıca fənlərin inteqrasiyasının konseptual modeli işlənməlidir. Humanitar fənlərlə təbii-elmi fənlərin inteqrasiya məsələsi də ancaq bu kontekstdə həll oluna bilər".

"Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumu"nda da belə bir qənaətə gəlinir ki, "inteqrasiya müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünü inkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaqla onları sistemləşdirməkdir".

İbtidai siniflərdə mənimsədilən dil qaydalarının mənimsədilməsi prosesində inteqrativ imkanların araşdırılması göstərir ki, fənlərarası və fəndaxili əlaqə inteqrativ xarakter daşıdıqda qazanılan bilik, bacarıq və vərdişlər bütövləşir, yenilənir, dərin keyfiyyət qazana bilir. Müəllimlər inteqrasiya vasitəsilə dil qaydalarını daha səmərəli formada mənimsədə bilirlər. Fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş imkanlar yaradır. Şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır.

Əslində, müasir təlimdə standart və təlim mexanizmləri inteqrasiyanın təminatçısıdır. Yəni mətnlər üzrə işlərdə danışıb-dinləmə və anlama, oxu, yazı, dil qaydaları bir-birini tamamlayan standartlardır. Dil qaydaları da fonetikadan başlayaraq sintaksis də daxil olmaqla fəndaxili inteqrasiya şəraitində mənimsədilir. Yəni, ayrı-ayrı mövzular, yarımmövzular, bəhslər bir-biri ilə əlaqədə öyrənilir.

İbtidai sinif mərhələsində tədris olunan bütün fənlər arasında inteqrasiya imkanları mövcuddur. Bu pillədə inteqrativ dərslərin keyfiyyətli alınması bir çox amillərlə bağlıdır. Birincisi, ibtidai sinifdə verilən bilik asandan çətinə mənimsətmə prinsipinə söykəndiyinə görə, mövzuların sadə izahlı həlli asandır. İkincisi, ibtidai sinif fənlərinin bir-biri ilə əlaqəsini təmin edən konkret standartlar mövcuddur ki, bu da müəllimlərin işini xeyli asanlaşdırır və vaxt itkisinə yol verilmir. Üçüncüsü və əsas amillərdən də biri odur ki, bir-iki fənni (informatika, xarici dil) çıxmaqla digər fənləri eyni müəllim tədris edir. Bu da həm idrakı, həm də psixoloji baxımdan müəllimin işini asanlaşdıran cəhətdir. Təsadüfi deyildir ki, cəmiyyət üçün yararlı nəslin yetişdirilməsinin təməli də ibtidai siniflərdə qoyulur.

İbtidai sinif müəllimi üçün fənlər arasında təbii əlaqəni üzə çıxarmaq, əlaqələrin mahiyyətini şagirdlərə başa salmaqla ilkin intellektual bütövləşməni təmin etmək o qədər də çətin məsələ deyildir.

Əgər şagirdlər fəndaxili və fənlərarası əlaqə sayəsində Azərbaycan dili kursunun başlıca ideyasını anlayarsa, mövzuları şüurlu surətdə öyrənər və yuxarı siniflərdə müvəffəqiyyətin qazanılması, tətbiqetmə asanlaşar.

İbtidai siniflərdə ən güclü əlaqə mətn, yəni bədii qiraət məhsulu ilə qrammatika arasında olan əlaqədir. Müasir təlim mətn üzrə işlə qurulduğuna görə müəllimdən də o tələb olunur ki, həm mətnin mahiyyəti, həm də məzmun xətləri üzrə işə yardım edən pedaqoji texnologiyalar inteqrasiyada öyrənilsin. Təbii ki, müxtəlif bölmələr üzrə biliklərin inteqrasiyada öyrənilməsi və rəngarəng pedaqoji texnologiyaların tətbiqi şagird təfəkküründə ətraf aləm haqqında vahid, sistemli dünyagörüşünün formalaşmasına kömək edir.

Biz yaxşı bilirik ki, istər ibtidai, istərsə orta məktəb pilləsində Azərbaycan dili təliminin əsas məqsədi fənnə aid məzmun standartlarının reallaşdırılmasıdır. Bu məqsədə tam nail olmaq və mənimsəmədə bütövləşməni təmin etmək üçün yalnız fənnin öz standartları kifayət etmir və başqa fənlərin standartları da vasitə kimi çıxış edir. Prosesin bu mərhələsində fənlərarası inteqrasiya özünü göstərir.

Tutaq ki, morfologiya bəhsi üzrə keçilən dərslərin ədəbi mövzularla əlaqələndirilməsi normativ tələffüz vərdişlərin aşılanmasında xüsusi əhəmiyyət kəsb edir. Yazılış tələffüzündən fərqli olan bəzi qrammatik kateqoriyaların deyilişi ədəbi mətnlər üzərində nümayiş etdirildikdə şagirdlər onları şüurlu dərk edir və bu yolla düzgün tələffüzlə danışmaq və oxumaq onlarda əməli nitq vərdişlərinə çevrilir. Məsələn, ismin hallanması haqqında müəllimin izahından və verdiyi tələffüz nümunəsindən şagirdlər öyrənirlər ki, sonu *m, n* samitləri ilə bitən sözlərdə -dan[2] şəkilçisi *nan, nən* şəklində deyilməli və oxunmalıdır. Bu tələffüz qaydası ədəbiyyat dərslərində tətbiq edilməli, oxu zamanı ona riayət etmək şagirdlərdən tələb olunmalıdır. Göründüyü kimi belə olduqda həm ismin çıxışlıq halına aid orfoqrafik-orfoepik norma mənimsənilir, həm də belə situasiyalarda bədii mətnləri düzgün oxumaq vərdişləri formalaşdırılır.

**Problemin aktuallığı.** Fəndaxili və fənlərarası əlaqəyə təlim prosesinin əsas komponentlərindən biri kimi yanaşılır və onun təlim keyfiyyətinə təsirindən danışılır.

**Problemin yeniliyi.** Təlimdə inteqrativliyə müxtəlif baxışlar təhlil edilir və əsaslandırılır ki, koqnitiv (idrakı) bilik yalnız inteqrasiya sayəsində qazanıla bilər. Təlim materialının tam mənimsənilməsi, fənnə aid standartların hərtərəfli reallaşdırılması üçün digər fənn standartlarına müraciət pedaqoji zərurətdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə toxunulan problemlər inteqrasiyanın təlimdəki mövqeyini aydınlaşdırmaq, onun təlim keyfiyyətinə təsirini dəqiqləşdirmək baxımından gənc müəllim, magistr və tədqiqatçılar üçün əhəmiyyətlidir. Onlar qiraət və qrammatika, oxu və tələffüz məsələlərini şərh etdikdə buradakı məlumatlardan faydalana biləcəklər.

**Ədəbiyyat:**


1. Azərbaycan dili: 4-cü sinif dərsliyi. Bakı, 2013.
2. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr. Bakı, 2007.
3. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Bakı, 2001.
4. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, 2012.


E-mail: tarana.muradova@eas.az

**Rəyçi:** *ped. ü.fəls. dok.* A.H. Balıyev
**Redaksiyaya daxil olub: 22.05.2018**